**2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il tarixli 215 saylı müraciət üzrə**

# RƏYİ

Bakı şəhəri 17 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 66 saylı Biləsuvar seçki dairəsindən qeydə alınmış namizəd Mehti Yusif Haceyib oğlu səsvermə günü həmin seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularının baş verdiyinə, bu pozuntuların araşdırılması və səsvermənin nəticələrinin ləğv olunmasına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) daxil olmuş 15 fevral 2020-ci il tarixli 215 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın (Təlimat) tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir. Belə ki, Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməlidir, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) isə Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112.2, 112-1.12-ci maddələrinə, Təlimatın 4.2 və 8.6-cı bəndlərinə uyğun olaraq müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan həmin müraciətin araşdırılması üçün aidiyyəti üzrə 66 saylı Biləsuvar seçki dairəsinin dairə seçki komissiyasına göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 3-cü, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 66 saylı Biləsuvar seçki dairəsindən qeydə alınmış namizəd Mehti Yusif Haceyib oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 fevral 2020-ci il 215 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov